

yaratmışdır ki, onlar ayrı-ayrı sənətsevərlərin şəxsi kolleksiyalarında yer almışdır.

Bu xalçalarda ayrı-ayrı muncuqların aydın görünüşü onları xalçadakı ilməyə bənzədir və rəsmə baxan tamaşaçı onun tikmə olduğunu ağlına belə gətirə bilməz. Müəllif milli xalça naxışlarından bəhrələnərək tez-tez qadın bəzək əşyaları yaradır. O, həm həndəsi, həm də nəbati ornamentlərdən istifadə edərək qadın kolyeləri, sırğa, qolbaq, kəmər, boyunbağı və jiletləri yaradır. Vaxt aparan və diqqət tələb edən rəngarəng xırda toz muncuqları ipə yığmaq və bununla bərabər zərgərlik sənətinin texniki prinsiplərinə riayət etmək o qədər də asan iş deyil. Lakin, bu çətinliklərə baxmayaraq, rəssam-dizayner saysız-hesabsız boyunbağı, boğazaltı, kəmər yaratmışdır ki, onların hər biri ayrı-ayrılıqda sənət əsəri hesab edilə bilər.



Qeyd etdiyimiz kimi, Bədirə xanım tez-tez eksperimentlər aparır, yeni forma axtarışları ilə məşğul olur. Onun yunan anforasının forma və naxışlarını saxlamaqla yaratdığı boyunbağısı bu baxımdan orijinaldır. Son zamanlar rəssam-dizayner müasir modanın tələblərinə uyğun mürəkkəb formalı zərgərlik əşyaları hazırlayır. Bu əşyaları hazırlayarkən, o, toz muncuqlardan deyil, qiymətli və yarımqiymətli daşlardan istifadə edir. Bu daşlara təbii mirvarilər, mərcan, əqiq, topaz, ay daşı, svorovski daşı, kəhrəba və süleymandaşı daxildir.

Onun 2009-cu ildə yaratdığı boğazaltı öz forma və naxış tərtibatına görə hər il dünyanın bir çox regionlarında keçirilən auksionlarda göstərilərək mühüm yer tutub və yüksək qiymətləndirilə bilər. Bu boğazaltıda ən çox gözə çarpan mirvari, süleymandaşı ilə yaradılan gül, yarpaq-çiçəklərin bir yerə toplandığı gül çələngini xatırladır. Ağ rəngli mirvarilərin ölçüsü yuxarıdan başlayaraq aşağıya doğru getdikcə daha qabarıq və əzəmətli görünür və ümumi kompozisiyanı tamamlayaraq boyunbağıya xüsusi bir gözəllik verir.

Bədirə xanımın gözəl zövqlə yaratdığı muncuq xalçalar və qadın bəzək əşyaları nəinki Azərbaycanda, həm də Avropanın bir sıra ölkələrində şöhrət qazanmışdır. Bu sənət əsərləri İtaliya, Fransa, Türkiyə və s. satış sərgilərində nümayiş etdirilir və məmnuniyyətlə qadınlar tərəfindən alınır.

Haqqında söhbət açdığımız sənət əsərləri müəllifinə şöhrət gətirdiyi kimi, gənc müstəqil dövlətimizin Avropada daha yaxşı tanınmasına xidmət edir. ❖

Kübra Əliyeva,
professor













# XALÇAÇILIQ VƏ TİKMƏ SƏNƏTİNİN QOHUMLUĞU



Bədirə Əliyeva

**Azərbaycanda xalçaçılıq sənəti ənənəvi sənətdir və onun tarixi çox qədimdir. Əsrlər boyu xalça ustaları bir-birindən fərqli yüzlərlə xalça kompozisiyaları yaratmışlar. Təsadüfi deyildir ki, bu gün Azərbaycan və xarici ölkə muzeylərində xalçalarımızın mindən artıq kompozisiyalarını özündə əks etdirən nümunələri saxlanır. Hətta bu günkü yeni araşdırmalar xalçaların indiyə qədər məlum olmayan kompozisiyalarını üzə çıxarır**

Bədirə xanım Əliyeva özü Daşkəsəndə anadan olsa da ata və anası əslən Qazax rayonunun yuxarı Əskipara kəndindəndir. Bədirə hələ uşaq ikən xalçaçı olmaq istəyirdi. On üç yaşında anası onu Yuxarı Əskiparada yaşayan xalası Pərinin evinə yay tətilinə göndərib kreslonun üzərində "Karvansara" adlı xalçanın muncuqla tikilmiş nüsxəsini görən Bədirə qərara gəlir ki, elə xalça naxışlarını muncuqla toxusun. Onun ilk müəllimi də xalası Pəri olur və ona muncuqla tikmə sənətinin sirlərini öyrədir. Lakin ata-anasının arzusu ilə ali təhsil almaq üçün sənədlərini Gəncə Kənd Təsərrüfatı İnstitutununa verib, oranı əla qiymətlərlə bitirir. On yeddi il Gəncə şəhər Təhsil Şöbəsində baş mühasib işləyir.

O, sənətə gəlişini belə izah edir:

- Sevdiyim sənətdən uzaqlaşdığıma görə qərara gəldim ki, ürəyimdə gəzdirdiyim gənclik, yəni müəllimlik, arzusunu həyata keçirim. 1990-cı ildə ali məktəblərə sənəd qəbuluna gecikdiyimə görə sənədlərimi Bakı İqtisadiyyat və Humanitar Kollecinə verib 34 yaşında yüksək balla "rəssam-dizayner" fakültəsinə qəbul oldum. Qiyabi təhsil ala-ala eyni zamanda məktəbdə müəllim vəzifəsində çalışmağa başladım. Nəhayət ki, həm sevdiyim peşə, həm də sevdiyim sənətlə məşğul olmağa başladım. 1998-ci ildə ailəliklə Gəncə şəhərindən Bakı şəhərinə köçdük. 2004-cü ildən isə Xırdalan şəhəri 9 saylı ərəb təmayüllü məktəbdə təsviri sənət üzrə dərs deməyə başladım. Muncuqlu tikmə ilə mütəmadi məşğul oluram. Gecikmiş olsam da, sənətimlə məşğul olmağa başladığım gündən boş qalan vaxtlarımın hamısını bu sənətə həsr etdim. İtirilmiş illərimin yerini doldurmağa çalışdım. Lətif Kərimovun "Azərbaycan xalçası" adlı kitabının I cildindən bəhrələnərək ilk xalça çeşnilərimi muncuqla yaratdım.

Bədirə Əliyeva sənətə gəncliyində gələ bilməsə də, son on il ərzində xeyli iş görüb. Bizim onun yaradıcılığında olan ayrı-ayrı xalça kompozisiyalarını, qadın zərgərlik əşyalarını, geyim nümunələrini sənət əsəri adlandırmağımız da təsadüfi deyil. Təbii ki, sənət əsəri dedikdə incəsənətdə ən nəfis və nümunə olan əsərlər nəzərdə tutulur. Bədirə xanımın yaradıcılığı üçün bu iki kəlmə xarakterikdir. O, bir dizayner kimi nadir zövqə, mənalı rəsmə malikdir. Milli naxışları, onların simvolikasını dərindən bilməklə bərabər, yaratdığı yeni kompozisiyalarda özünün bədii fantaziyasından tez-tez istifadə edir. Onun yaradıcılığında forma və məzmun vəhdət təşkil edir. Rəng həllinə gəlincə isə Bədirə xanımın xalça yaradıcılığında tətbiq etdiyi milli koloritlə yanaşı, müasir dövrün moda tələblərinə uyğun olan əşyaların rəng koloritindəki rəngarənglik və müxtəliflik insanların nəinki zövqünü oxşayır, eyni zamanda xoş emosiya yaradır.

**Onun yaradıcılığında əsas material kimi muncuqlardan istifadə edilir. Bu iynənin ucu qədər kiçik olan və xalq arasında "toz muncuq" adlanan muncuqlar, təbii ipəkdən, yüksək gərginliyə davam gətirən incə, tük qədər nazik, elastik saplar və on bir nömrəli "muncuq iynəsi" adlanan iynədən ibarətdir. Məhz bu üç əşya – rəngli muncuqlar, sap və iynə ilə rəssam-dizayner öz əsərlərini yaradır.**



Bədirə xanımın yaradıcılığında ön planda Azərbaycan xalçalarını muncuq vasitəsilə canlandırmasıdır. Bu baxımdan 2009-cu ildə yaratdığı "Pirəbədil" adlı Quba xalçası diqqəti cəlb edir. Rəssam-dizayner "Pirəbədil" xalçasının arasahə yerliyini ağ rəngli muncuqlarla tikmiş, onun üzərində olan simmetrik hind quşu, böyük ölçülü monumental qoç buynuzu və həndəsi formalı medalyonu isə daha intensiv və gözəçarpan rənglərdə əks etdirmişdir. Xalçanın yaşıl, qırmızı və tünd qəhvəyi rəngli romb elementlərinin təkrarından yaranan enli haşiyəsi, ümumi kompozisiya həllini həm rəng və həm də naxış cəhətdən məntiqi olaraq tamamlayır.

Ustad sənətkar Bədirə Əliyevanın 2013-cü ildə yaratdığı "Naxçıvan xalçası" rəssam tərəfindən altı ay ərzində işlənmişdir. Uzunluğu bir metr 12 sm, eni 76 sm olan bu nadir əsərin əsli Naxçıvan MR-dakı Xalça muzeyində saxlanır. Bu xalça nümunəsinin yaradılmasında 6 milyona yaxın rəngli "Toz muncuğundan" istifadə edilmişdir. Tikmənin çəkisi beş kiloqramdır. Xalçanın arasahəsi başdan-başa ağ rəngli fon üzərində şaquli və üfiqi istiqamətdə bir-birinin ardınca düzülmüş, xalq arasında igidlik, hökmranlıq simvolu "qoç buynuzu" adlanan simmetrik burmalarla formalaşan qırmızı elementlərlə doldurulmuşdur. Həmin elementlərin biraşırı aralarında çiçəklənən "Həyat ağacının" təsviri öz əksini tapmışdır. Ara sahənin mərkəzində qırmızı rəngli səkkizbucaqlı element yerləşmişdir. Bu elementin üzərində yarpaqlı budaqlarla bəzənən "Çərxi-fələk" elementinin təsviri ara sahənin daha ifadəli və gözəl görünməsinə imkan yaratmışdır. Azərbaycan incəsənətində 6-7 min il tarixi olan "Çərxi-fələk" işarəsi həm də günəşin simvolu hesab edilir. Dinamik formaya malik bu haşiyə qurşağı özlüyündə qədim xalq rəqslərindən olan ritmik təkrar edilən dairəvi "Yallı" rəqsinin formasını xatırladır.

Rəssam - sənətkar bu tikmənin tam real xalçaya bənzəməsi üçün onun aşağı və yuxarı qurtaracağında ağ rəngli muncuqlarla əriş iplərini xatırladan sıx saçaqlar da əlavə etmişdir. Bədirə xanımın tikmə texnikası ilə, toz muncuqlarla yaratdığı bu nadir Naxçıvan xalçası rəssamın illərlə yaratdığı əl işləri içərisində ən nadir sənət əsəri hesab edilə bilər. Bu əsər 2013-cü ildə yaradılıb, rəssam tərəfindən xüsusi olaraq Naxçıvan Xalça muzeyinə təqdim etmək üçün nəzərdə tutulmuşdur.

Bədirə xanım çox zaman əslində xalça kompozisiyası kimi mövcud olmayan və özünün yaratdığı yeni çeşnilər əsasında xalça - tikmələr yaradır. Azərbaycan xalçalarının kompozisiya quruluşunu dərindən öyrənən rəssam, həndəsi biçimli göl və gölün dörddə bir hissəsini ara sahədə təkrar edərək orta əsrlərdən mövcud olan "Ləçək-türünç" kompozisiyalı xalçasını yaratmışdır. 2013-cü ildə bitirdiyi bu iş kompozisiya tamlığı, naxışlardakı dəqiq simmetriya və rəng koloritindəki harmoniya nəzər-diqqəti cəlb edir. Məsələn, xalçanın ara sahəsinin mərkəzində səkkizguşəli ağ yerlikli gölün tam mərkəzində yerləşən qırmızı və qara konturlu, səkkizguşəli elementin sarı rəngi xalçanın haşiyəsinin fonunda tətbiq olunmuşdur. B. Əliyeva son dövrlərdə 10-dan artıq ornamental və süjetli xalçalar